**Təsdiq edirəm:**
Biznes mühiti və beynəlxalq
reytinqlər üzrə Komissiyanın sədri,
Azərbaycan Respublikası Baş nazirinin
birinci müavini Yaqub Eyyubov

_________________

27.02.2023-cü il

**Biznes mühiti və beynəlxalq reytinqlər üzrə Komissiyanın “Korrupsiya və şəffaflıq” işçi qrupunun 2023-cü il üçün Fəaliyyət Planı**

| Sıra №-si | İndikatorlar | Mövcud vəziyyət (Son hesabat üzrə) | Metodologiya | Görüləcək tədbirlər | Son icra müddəti | İcra orqanları | Məsul şəxslər |
|---|---|---|---|---|---|---|---|
| ***Qlobal Rəqabətlilik Hesabatı*** | | | | | | | |
| 1. | **1.18 Maraqlar münaqişəsinin tənzimlənməsi** | 18-ci yer, 77 bal | Bu göstərici direktorların şirkətin aktivlərini şəxsi maraqları üçün istifadə etməsindən səhmdarların nə dərəcədə qorunduğunu ölçür. Qiymət 0 və 10 (ən yaxşı) aralığında dəyişir. İndeks maraqlar münaqişəsini tənzimləyən qaydaları üç istiqamətdə qiymətləndirir:<br>1) əlaqəli tərəflər arasındakı əməliyyatlarda şəffaflıq;<br>2) səhmdarların direktorları sui-istifadə hallarına görə məhkəməyə verə bilmə imkanı;<br>3) səhmdarların məhkəmə prosesində sübutları əldə edə bilməsi və xərclərin bölüşdürülməsinə nail olmaları. | **Aşağıdakı istiqamətlərdə aidiyyəti qurumlar tərəfindən müvafiq işlərin görülməsi və bu sahədə işçi qrup tərəfindən onlara zəruri dəstəyin göstərilməsi:** | | | |
| | | | | **1.** Dövlət orqanlarının fəaliyyətində maraqlar toqquşmasının qarşısının alınması mexanizmlərini özündə əks etdirən vahid qanunvericilik aktının layihəsinin hazırlanaraq işçi qrupun iclaslarında müzakirə edilməsi və müzakirənin nəticələri üzrə Komissiyaya məlumat verilməsi; | 01.10.2023 | Baş Prokurorluq (Baş prokuror yanında Korrupsiyaya qarşı Mübarizə Baş İdarəsi), Ədliyyə Nazirliyi, İqtisadiyyat Nazirliyi (o cümlədən Kiçik və Orta Biznesin İnkişafı Agentliyi (KOBİA)), Maliyyə Monitorinqi Xidməti (özəl sektorun nümayəndələri və vətəndaş cəmiyyəti institutları cəlb edilməklə) | Asəf Sarıkişiyev, Kənan Məlikov, Fuad Əliyev, Əliməmməd Nuriyev |
| | | | | **2.** Cinayət yolu ilə əldə edilmiş pul vəsaitlərinin və ya digər əmlakın leqallaşdırılması cinayətlərinin hüquq-mühafizə orqanları tərəfindən aşkarlanması və istintaqının aparılmasında səmərəliliyin artırılması, eləcə də bu sahədə istintaq təcrübəsinin inkişafının təmin edilməsi məqsədilə qabaqcıl beynəlxalq təcrübə nəzərə alınmaqla qanunvericiliyin təkmilləşdirilməsinə dair təkliflərin hazırlanaraq Komissiyaya təqdim edilməsi, habelə qeyd olunan sahədə effektiv maarifləndirmə tədbirlərinin həyata keçirilməsi. | Mütəmadi<br><br>Təkliflərin təqdim edilməsi (01.07.2023) | | |

| | | | | | | | |
|---|---|---|---|---|---|---|---|
| 2. | **1.13 Korrupsiya halları** | 127-ci yer, 25 bal | Dövlət sektorunda korrupsiya 0-100 ballıq şkala üzrə qiymətləndirilir (0 - çox, 100 – korrupsiyadan azad). İndikator bizneslə əlaqəli şəxslərin və ölkənin ekspertlərinin dövlət sektorunda olan korrupsiyanın həddi haqda görüşlərini bildirən bir neçə müxtəlif mənbədən olan məlumatları ümumiləşdirir. | **Aşağıdakı istiqamətlərdə aidiyyəti qurumlar tərəfindən müvafiq işlərin görülməsi və bu sahədə işçi qrup tərəfindən onlara zəruri dəstəyin göstərilməsi:** | | | |
| | | | | **1.** Korrupsiyaya qarşı mübarizə sahəsində aidiyyəti dövlət qurumları və vətəndaş cəmiyyəti institutları ilə birgə maarifləndirmə tədbirlərinin həyata keçirilməsi, bu sahədə məlumatların mediada yayımlanması; | Hər rüb | Baş Prokurorluq (Baş prokuror yanında Korrupsiyaya qarşı Mübarizə Baş İdarəsi), Ədliyyə Nazirliyi, İqtisadiyyat Nazirliyi (özəl sektorun nümayəndələri və vətəndaş cəmiyyəti institutları cəlb edilməklə) | Asəf Sarıkişiyev, Elçin Nəsibov, Əliməmməd Nuriyev, Sevinc Novruzova |
| | | | | **2.** Korrupsiya ilə əlaqədar hüquqpozmalarla bağlı məlumat verən şəxslərin müdafiəsinə dair müvafiq müddəaları özündə əks etdirən vahid qanunvericilik aktının layihəsinin hazırlanaraq işçi qrupun iclaslarında müzakirə edilməsi və müzakirənin nəticələri üzrə Komissiyaya məlumat verilməsi; | 01.10.2023 | | |
| | | | | **3.** Vəzifəli şəxslər tərəfindən maliyyə xarakterli məlumatların elektron formada təqdim edilməsi işinin təşkili ilə bağlı təkliflərin hazırlanaraq Komissiyaya təqdim edilməsi. | 01.10.2023 | | |
| ***İqtisadi Azadlıq İndeksi*** | | | | | | | |
| 3. | **1.1 Mülkiyyət hüquqları** | 83-cü yer, 53,6 bal | Bu indikator üzrə göstərici aşağıdakı 5 alt-faktorun ədədi ortası kimi hesablanır:<br>- fiziki mülkiyyət hüquqları;<br>- intellektual mülkiyyət hüquqları;<br>- investorların müdafiəsi səviyyəsi;<br>- müsadirə riski;<br>- torpaq administrasiyasının keyfiyyəti.<br>Hər bir alt-faktor 0-100 ballıq intervalda qiymətləndirilir. | **Aşağıdakı istiqamətlərdə aidiyyəti qurumlar tərəfindən müvafiq işlərin görülməsi və bu sahədə işçi qrup tərəfindən onlara zəruri dəstəyin göstərilməsi:** | | | |
| | | | | **1.** Daşınmaz əmlakın alqı-satqısı ilə bağlı prosedurların elektronlaşdırılması tədbirlərinin davam etdirilməsi; | 01.07.2023 | İqtisadiyyat Nazirliyi, Ədliyyə Nazirliyi, Daxili İşlər Nazirliyi, Baş Prokurorluq (Baş prokuror yanında Korrupsiyaya qarşı Mübarizə Baş İdarəsi), Maliyyə Nazirliyi, Hesablama Palatası | Nigar Alimova, Kənan Məlikov, Elçin Nəsibov, Asəf Sarıkişiyev |
| | | | | **2.** Qanunsuz varlanmaya qarşı mübarizə tədbirlərinin gücləndirilməsi ilə bağlı təkliflərin hazırlanaraq aidiyyəti üzrə təqdim edilməsi. | 01.09.2023 | Ədliyyə Nazirliyi, Baş Prokurorluq (Baş prokuror yanında Korrupsiyaya qarşı Mübarizə Baş İdarəsi), İqtisadiyyat Nazirliyi | Elçin Nəsibov, Asəf Sarıkişiyev, Kənan Məlikov |

| | | | | | | | |
|---|---|---|---|---|---|---|---|
| 4. | **1.3 Dövlətin bütövlüyü** | 138-ci yer, 28,6 bal | Dövlətin bütövlüyü komponenti aşağıdakı 6 alt-faktorun ədədi ortası kimi hesablanır:<br>1) Siyasətçilərə ictimai inam;<br>2) Qeyri-müntəzəm ödənişlər və rüşvət;<br>3) Dövlət siyasətinin şəffaflığı;<br>4) Korrupsiyanın yoxluğu;<br>5) Korrupsiya qavrayışları;<br>6) Dövlət və mülki xidmətin şəffaflığı.<br>Hər bir alt-faktor 0-100 ballıq intervalda qiymətləndirilir. | **Aşağıdakı istiqamətlərdə aidiyyəti qurumlar tərəfindən müvafiq işlərin görülməsi və bu sahədə işçi qrup tərəfindən onlara zəruri dəstəyin göstərilməsi:** | | | |
| | | | | **1.** Dövlət orqanlarının fəaliyyətində korrupsiya risklərinin müəyyən edilməsi, təhlili və qarşısının alınması qaydalarının layihəsinin hazırlanaraq işçi qrupun iclaslarında müzakirə edilməsi və müzakirənin nəticələri üzrə Komissiyaya məlumat verilməsi; | 01.11.2023 | Ədliyyə Nazirliyi, Baş Prokurorluq, İqtisadiyyat Nazirliyi, Dövlət İmtahan Mərkəzi, Vətəndaşlara Xidmət və Sosial İnnovasiyalar üzrə Dövlət Agentliyi | Elçin Nəsibov, Asəf Sarıkişiyev, Elçin Nəcəfov, Kənan Məlikov |
| | | | | **2.** Dövlət satınalmaları sahəsində şəffaflığın və hesabatlılığın artırılması, maraqlar toqquşması və digər mümkün qanunazidd hərəkətlərin qarşısının alınması ilə əlaqədar zəruri tədbirlərin görülməsi; | Mütəmadi | İqtisadiyyat Nazirliyi (Antiinhisar və İstehlak Bazarına Nəzarət Dövlət Xidməti), Baş Prokurorluq (Baş prokuror yanında Korrupsiyaya qarşı Mübarizə Baş İdarəsi), Ədliyyə Nazirliyi | Əhməd Həsənov, Kənan Məlikov, Asəf Sarıkişiyev, Elçin Nəsibov |
| | | | | **3.** Vətəndaşlar, eləcə də sahibkarlar üçün birbaşa hüquqi nəticə yaradan iş prosesləri üzrə korrupsiya risklərinin, sui-istifadəyə və vətəndaşların (sahibkarların) narazılıqlarına səbəb olan şəraitin aradan qaldırılması istiqamətində işlərin səmərəliliyinin artırılması, qeyd olunan sahələr üzrə çatışmazlıqların aşkar edilməsi və müvafiq tədbirlərin görülməsi; | Mütəmadi | İqtisadiyyat Nazirliyi (özəl sektor nümayəndələri və vətəndaş cəmiyyəti institutları cəlb edilməklə) | Kənan Məlikov, Asəf Sarıkişiyev, Elçin Nəcəfov, Elçin Nəsibov |
| | | | | **4.** Özəl sektorda şəffaflığın təmin edilməsi və korrupsiyanın qarşısının alınması məqsədilə antikorrupsiya, şəffaflıq, etik davranış və hesabatlılıq tələbləri (uyğunluq mexanizmi) üzrə tədbirlərin sahibkarlıq subyektlərinə təşviq edilməsi. | 01.09.2023 | İqtisadiyyat Nazirliyi (KOBİA), Baş Prokurorluq (Baş prokuror yanında Korrupsiyaya qarşı Mübarizə Baş İdarəsi) | Elmar İsayev, Nicat Eyvazzadə, Kənan Məlikov, Asəf Sarıkişiyev |

| | | | | | | | |
|---|---|---|---|---|---|---|---|
| ***Yerli və beynəlxalq qurumlarla əməkdaşlığın gücləndirilməsi*** | | | | | | | |
| 5. | **Bütün aidiyyəti indikatorlar** | - | - | Beynəlxalq reytinqlər üzrə sorğularda iştirak edən şirkətlərlə (rezident və qeyri-rezident) müvafiq sahədə mütəmadi əməkdaşlığın davam etdirilməsi və genişləndirilməsi. | İl ərzində | Bütün aidiyyəti qurumlar | İşçi qrupun bütün üzvləri |
| 6. | **Bütün aidiyyəti indikatorlar** | - | - | Hesabatı hazırlayan ekspert və ya qiymətləndirmə qrupları ilə əməkdaşlığın genişləndirilməsi və ölkədə faktiki göstərici və ya qanunvericilik tələbi barədə məlumatların Komissiyanın Katibliyi ilə razılaşdırılmaqla onlara çatdırılması. | İl ərzində | Bütün aidiyyəti qurumlar | İşçi qrupun bütün üzvləri |